XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR

# LERİK

№ 12 (5571) ✹ 01 Sentyabr 2016-cı il ✹ Qəzet 1937-ci ildən çıxır ✹ Rayonun ictimai-siyasi qəzeti ✹ Qiymətı 40 qəpik



*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*

# LERİK RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

*Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə 2016-cı il sentyabrın 26-a təyin edilmiş ümumxalq səsverməsi (referendum) ilə əlaqədar rayonun yaşayış məntəqələrində vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında*

# SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsi və Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmiş "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanın 11-ci maddəsi hər kəsin başqaları ilə birlikdə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək hüququnu təsbit edir. Vətəndaşların sərbəst toplaşmaq hüququ və bu hüququn təmin edilməsi qaydalarını hazırlamaq məqsədi ilə "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir. Qanunun əsas məqsədi ölkəmizin hüquqi dövlət quruculuğu mərhələsində əhalinin sosial fəallığının artırılmasını, vətəndaş- dövlət münasibətlərinin beynəlxalq prinsiplərə və qaydalara uyğun qurulmasını təmin etməkdən ibarətdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" 26 iyul 2016-cı il tarixli sərəncamı ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsinə (referenduma) hazırlıq dövründə vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin edilməsi, bütün təşəbbüs qrupları üçün bərabər təbliğat-təşviqat imkanlarının yaradılması məqsədi ilə 78 saylı Lerik Dairə Seçki Komissiyasının 13 avqust 2016-cı il tarixli müraciətini nəzərə alaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 86.1 və 87.6-cı, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 7-9 -cu maddələrinə əsaslanaraq

Qərara alıram:

1. Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi (referendum) ilə əlaqədar rayonun yaşayış məntəqələrində "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada rayonun yaşayış məntəqələrində dinc yığıncaqlar, mitinqlər, nümayişlər və sair toplantıların keçirilməsi üçün ayrılmış yerlərin siyahısı təsdiq edilsin. (Siyahı əlavə olunur)

2. Lerik Rayon İcra Hakimiyyəti başçısının şəhər (kənd) inzibati ərazi dairələri üzrə nümayəndələrinə tapşırılsın ki:

- təsdiq edilmiş siyahıya uyğun olaraq referendum üzrə təşviqat qruplarının və səlahiyyəti nümayəndələrinin müraciətlərinə əsasən dinc yığıncaqlar, mitinqlər və digər kütləvi toplantıların keçirilməsi üçün yerlərin ayrılmasını təmin etsinlər;
- toplantıların keçirilməsi barədə müraciətlərə "Sərbəst toplaşmaq azadlığı haqqında " Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla qanunun tələblərinə müvafiq qaydada və müddətdə baxılmasını təmin etsinlər;
- yaşayış məntəqələrində "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş məhdudiyyətlər və Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla kütləvi təbliğat-təşviqat materiallarının yerləşdirilməsi üçün təsdiq edilmiş siyahıya uyğun yerlərin ayrılmasını təşkil etsinlər;
- yığıncaqlar, mitinqlər və digər kütləvi toplantıların keçirilməsi zamanı hüquq-mühafizə orqanları tərəfindən ictimai asayişin qorunması, insanların təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq təşkilati tədbirlər həyata keçirsinlər.

3. Lerik Rayon İcra Hakimiyyəti başçısının 30 sentyabr 2015-ci il tarixli 144 nömrəli sərəncamı qüvvədən düşmüş hesab edilsin.

4. Sərəncam "Lerik" qəzetində dərc edilsin.

5. Sərəncamın icrasına nəzarət rayon icra hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşiyevə tapşırılsın.

**Rövşən Bağırov**
**Lerik Rayon İcra Hakimiyyətinin başçısı:**
*Lerik şəhəri*
*25 avqust 2016-cı il*

# Aprel döyüşlərinin iştirakçıları olan bir qrup hərbi qulluqçu uzunömürlülər diyarı Lerikdə olub



**Müdafiə Nazirliyi və Lerik Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə uzunömürlülər diyarı Lerikdə aprel döyüşlərinin iştirakçıları olan bir qrup hərbi qulluqçu və ailə üzvləri ilə rayon ictimaiyyətinin görüşü oldu.**

Gəncə Qarnizonu Zabitlər Evinin "Vətən uğrunda!" səyyar təşviqat maşınının vasitəsi ilə səsləndirilən hərbi vətənpərvərlik mahnı və marşlarının sədaları altında Heydər Əliyev meydanına daxil olan qalib döyüşçüləri rayon rəhbərliyi hərarətlə qarşılayıb, milli geyimli qızlar və oğlanlar onlara qəhrəmanlıq rəmzi olan dəfnə yarpaqlarından hörülmüş çələnglər, gül-çiçəklər təqdim etdilər.

Od-alovdan çıxmış barıt qoxulu igidlər xalqımızın ümummili lideri Heydər Əliyevə bir daha hörmət və ehtiramlarını bildirərək Ulu Öndərin abidəsini ziyarət edib, qarşısına tər gül dəstələri qoydular.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani hər bir hərbi qulluqçunu tədbir iştirakçılarına təqdim edib və onların aprel döyüşlərində göstərdikləri şəxsi rəşadət və sücaətlərdən söhbət açdı. Böyük qələbəlik Vətən əsgərlərini hərarətlə alqışladılar.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov qonaqları leriklilər adından salamlayaraq bu görüşdən hər bir lerikinin qürur duyduğunu bildirdi. O, aprel döyüşlərində Azərbaycan əsgərinin qələbəsini bütün xalqımız kimi hər bir leriklinin də böyük sevincinə səbəb olduğunu qeyd etdi. Cəbhədən gələn hər qələbə sorağı leriklilərі də ruhlandırıb. Həmin günlər bütün rayon əhalisi ayaq üstə idi və Ali Baş Komandanın əmrini gözləyirdi.



İcra başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprel döyüşləri haqqında dediyi fikirləri xatırladaraq vurğuladı ki, həqiqətən aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir.

Qeyd etdi ki, Qarabağ məsafə etibarı ilə Lerikdən çox uzaqdadır. Lakin Qarabağda atılan hər güllənin səsi hər bir leriklinin də evində, qəlbində eşidilir. Çünki Heydər Əliyev ideyalarına, Vətəninə, xalqına, dövlətinə, öz Prezidentinə həmişə sadiq olan uzunömürlülər diyarının sakinləri də müstəqil dövlətimizin qayğıları ilə yaşayır və Qarabağ probleminin tezliklə həllini səbirsizliklə gözləyirlər.

Azərbaycanın ərazi bütövlüyü uğrunda təkcə Lerik rayonu 140-a yaxın şəhid verib. Onlardan Valeh Müslümov, Fərhad Ağayev, Fəxrəddin Şahbazov, Əsgər Əliyev və Rövşən Abdullayev Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüblər.

Nəzərə çatdırılıb ki, aprel döyüşlərinin igidləri sıralarında bu diyardan pərvazlanan oğullar da yetərincədir. Hazırda Silahlı Qüvvələrdə yüzlərlə leriklі gənc Vətən qarşısında əsgəri borcunu şərəflə yerinə yetirir.



Polkovnik Abdulla Qurbani Azərbaycan Prezidentinin və Müdafiə Nazirliyi rəhbərliyinin şəhid ailələrinə, müharibə əlil və iştirakçılarına daim diqqət, qayğı göstərildiyini və bu işin bu gün də prioritet olduğunu bildirdi.

Aprel döyüşləri iştirakçılarından polkovnik-leytenantlar Elşən Qarayev, Eldəniz Sadıqov, Vüqar Mirzəliyev, kapitan Hikmət Məmmədov, müddətdən artıq hərbi xidmət qulluqçularından Rövşən Rəhimov, Vüqar Abbasov, Emin Qasımlı və başqaları cəbhə xatirələrini danışıb, onlara göstərilən diqqət və qayğıdan məmnun olduqlarını bildirib, qazilərin övladları şeirlər söyləyib, ailə üzvləri bu xeyirxah vətənpərvərlik təşəbbüsünə görə tədbirin təşkilatçılarına minnətdarlıq etdilər.

Tədbir iştirakçıları adından çıxış edən Bəhruz İbrahimov bu kimi tədbirlərin xüsusilə gənclərin hərbi vətənpərvərlik tərbiyəsində müstəsna əhəmiyyət kəsb etdiyini, gənclərin orduya hazırlanmasında, hərbi peşələrə həvəsləndirilməsində və döyüşən oğullarımızın qəhrəmanlıq nümunələri əsasında yetişməsində mühüm önəm daşıdığını qeyd etdi.

Tədbirdə rayon Mədəniyyət və Turizm şöbəsinin bədii özfəaliyyət kollektivi rəngarəng konsert proqramı ilə çıxış etdi. Səyyar laboratoriyada təcili çap olunan fotolar tədbir iştirakçılarında maraq oyatmışdı.

Aprel döyüşü qəhrəmanlarına rayon icra hakimiyyəti başçısı tərəfindən hədiyyələr bağışlandı.

Tədbirin sonunda rayon icra hakimiyyəti tərəfindən "Xəyal" turizm və istirahət mərkəzində aprel döyüşlərinin iştirakçıları və onların ailə üzvləri üçün ziyafət verildi.

# REDAKTORDAN

## YENİ SİYASİ İDARƏETMƏ SİSTEMİ FORMALAŞDIRILACAQ




**Azərbaycanın ilk konstitusiyası 1995-ci ildə qəbul olunub. Konstitusiyamız qəbul olunanda ümummilli lider Heydər Əliyev demişdi: "Demokratiyanın başlanğıcı olur, sonu yoxdur". İlk dəfə konstitusiyamız qəbul olunanda demokratiyanın başlanğıcı idi. Ötən 25 il ərzində çox möhkəm təməllər üzərində müstəqil dövlət qurduq. 25 il ərzində konstitusiyamızda iki xırda düzəliş istisna olmaqla, heç bir dəyişiklik olunmadı. Praktika göstərir ki, dünyanın inkişaf etmiş dövlətlərin konstitusiyasında yüzlərlə, hətta minlərlə dəyişiklik həyata keçirilib. Azərbaycanda referendumun keçirilməsi istisna hal deyil və beynəlxalq praktikanı öyrənilərək atılan mütərəqqi addımdır.**

Konstitusiyaya əlavə və dəyişikliklər zərurətdən irəli gəlir və yeni siyasi idarəetmə sisteminin formalaşdırılması üçün atılan mühüm addımdır. Əsas məqsəd ümumxalq səsverməsi (referendum) yolu ilə əsas qanunda müəyyən dəyişikliklər etməklə hazırkı demokratik cəmiyyəti daha da inkişaf etdirmək, insan faktoruna qanun çərçivəsində diqqəti daha da artırmaq, idarəetmə sistemini təkmilləşdirməklə iqtisadi inkişafına malik dövlət qurmaq və Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir.

26 sentyabrda keçiriləcək referendumda Azərbaycan Respublikasının Konstitusiyasının 29 maddəsinə əlavə və dəyişikliklərin edilməsi nəzərdə tutulur. Dəyişikliklərin 60 faizi insan hüquq və azadlıqlarının genişləndirilməsi, qalan 14 dəyişiklik isə ölkədə yüksək iqtisadi inkişafa nail olmaq və çevik idarəetmə məqsədi daşıyır. Konstitusiyanın 29-cu maddəsində "Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur və sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər" kimi dəyişikliyin aparılması zərurətini meydana gətirir. Yəni, özəl mülkiyyət də dövlət və bələdiyyə mülkiyyəti kimi mülkiyyət sahibinin qabağında sosial məsuliyyət yaratmalı və xüsusi mülkiyyətin də cəmiyyətə xidmət etməsi istiqamətində bir cavabdehlik ortaya qoyulmalıdır.

Konstitusiyaya əlavə olunması nəzərdə tutulan 4 yeni maddə dövlət strukturlarının təkmilləşdirilməsi və onların səlahiyyətlərinin dəqiqləşdirilməsi və yaxşı idarəetmə mexanizminin qurulmasına xidmət edəcək. Bu dəyişikliklər ölkədə 1-ci vitse-prezident və vitse-prezidentlərin təsis edilməsini nəzərdə tutur. Vitse-prezidentlik institutunun yaradılması idarəçiliyin operativliyini daha da artıracaq, dövlətçiliyi möhkəmləndirəcək, prezidentin qəbul etdiyi sərəncamların, fərman və qərarların hökumət tərəfindən vaxtında icra olunmasına nəzarəti artıracaq. Bütövlükdə vitse-prezidentlik institutunun yaradılması Konstitusiyaya edilən dəyişikliklərin çox mühüm tərkib hissəsidir və Azərbaycan dövlətinin öz inkişafında artıq yeni bir mərhələyə qədəm qoymasından xəbər verir. Vitse-prezidentlik Azərbaycan xalqına, dövlətçiliyinə daha uğurlu və çevik siyasət gətirəcək.

# ÜÇ GÜNLÜK KURS

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" əsasında dairə seçki komissiyalarının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün regionda keçirilən seçki hüququ üzrə ixtisaslaşdırılmış üç günlük kurs keçirilmişdir. Kursda Lerik 78 saylı dairə seçki komissiyasının sədri İdris Şıxəliyev seçici siyahıları ilə işin aparılması, referendumqabağı təşviqatın aparılmasına şərait yaradılması, bildirişlərin seçicilərə çatdırılması və s. bu kimi istiqamətlərdə yerli icra və bələdiyyə qurumlarının rolu və onların seçki komissiyaları ilə səmərəli qarşılıqlı əlaqələrinin qurulması, referenduma hazırlıq, referendumun keçirilməsi, səslərin hesablanması və nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkili, referendumun keçirilməsi, səslərin hesablanması və nəticələrin rəsmiləşdirilməsi, bu istiqamətdə məntəqə seçki komissiyalarının fəaliyyətinin təşkili və vəzifələri barədə məlumat vermişdir.



Lerik RİH hüquq şöbəsinin müdiri Araz Quliyev, Astara rayon Məhkəməsinin sədri Ramiq Rəsulov, MSK-nın üzvü İlkin Şahbazov, Lerik rayon polis idarəsinin rəisi Hüseynəli Məlikov, Lerik rayon prokuroru Bəhruz İbrahimov çıxış etmiş, verilən sualları cavablandırmışlar.

# Lerik Rayon İcra Hakimiyyəti başçısının 25 avqust 2016-cı il tarixli 138 nömrəli sərəncamı ilə təsdiq edilmişdir

*Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi (referendum) ilə əlaqədar "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada Lerik rayonunun yaşayış məntəqələrində dinc yığıncaqlar, mitinqlər, nümayişlər və sair toplantıların keçirilməsi üçün ayrılmış yerlərin*

# S İ Y A H I S I

| S/№ | İnzibati ərazi vahidi | Yaşayış məntəqələri | Dinc yığıncaqlar, mitinqlər, nümayişlər və sair toplantıların keçirilməsi üçün ayrılmış yerlər | | |
|---|---|---|---|---|---|
| | | | Qapalı | Açıq | Təbliğat-təşviqat yerləri |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **1.** | **Lerik şəhər inzibati ərazi dairəsi** | | | | |
| 1.1 | | Lerik şəhəri, Hıramo kəndi | Lerik şəhər mədəniyyət evinin iclas zalı | Lerik şəhər "Gənclik" stadionu | Lerik şəhər mədəniyyət evinin foyesi |
| **2.** | **Cəngəmiran kənd inzibati ərazi dairəsi** | | | | |
| 2.1 | | Cəngəmiran, Pirzəkücə kəndləri | Cəngəmiran kənd klubu | Cəngəmiran kənd klubunun qarşısındakı meydan | Cəngəmiran kənd klubunun foyesi |
| **3.** | **Blaband kənd inzibati ərazi dairəsi** | | | | |
| 3.1 | | Blaband, Ambu, Barzavu, Xəlifəkücə, Lüləkəran, Osnağakücə, Şinəbənd kəndləri | Blaband kənd klubu | Blaband kənd klubunun qarşısındakı meydan | Blaband kənd klubunun foyesi |
| **4.** | **Monidigah kənd inzibati ərazi dairəsi** | | | | |
| 4.1 | | Monidigah, Pendi, Jindi, Nisli, Həzovi kəndləri | Monidigah kənd mədəniyyət evi | Monidigah kənd mədəniyyət evinin qarşısındakı meydan | Monidigah kənd mədəniyyət evinin foyesi |
| **5.** | **Livədirqə kənd inzibati ərazi dairəsi** | | | | |
| 5.1 | | Livədirqə, Mastail, Murya,Əvilə, Qədimkücə, Nüsomurya, Yuxarı Bilnə kəndləri | Livədirqə kənd klubu | Livədirqə kənd klubunun qarşısındakı meydan | Livədirqə kənd klubunun foyesi |
| **6.** | **Şingədulan kənd inzibati ərazi dairəsi** | | | | |
| 6.1 | | Şingədulan, Laman kəndləri | Şingədulan kənd mədəniyyət evi | Şingədulan kənd mədəniyyət evinin qarşısındakı meydan | Şingədulan kənd mədəniyyət evinin foyesi |
| 6.2 | | Zenoni, Ağqışlaq, Küman kəndləri | Zenonu kənd klubu | Zenonu kənd klubunun qarşısındakı meydan | Zenonu kənd klubunun foyesi |
| 6.3 | | Durğan kəndi | Durğan kənd klubu | Durğan kənd klubunun qarşısındakı meydan | Durğan kənd klubunun foyesi |
| **7.** | **Molalan kənd inzibati ərazi dairəsi** | | | | |
| 7.1 | | Molalan kəndi | Molalan kənd klubu | Molalan kənd klubunun qarşısındakı meydan | Molalan kənd klubunun foyesi |
| 7.2 | | Sors kəndi | Sors kənd klubu | Sors kənd klubunun qarşısındakı meydan | Sors kənd klubunun foyesi |
| **8.** | **Osyodərə kənd inzibati ərazi dairəsi** | | | | |
| 8.1 | | Osyodərə, Biləvər, Kekonu, Şivlə, Geskon, Bülüdül, Gəndov, Xanəgah kəndləri | Osyodərə kənd mədəniyyət evi | Osyodərə kənd mədəniyyət evinin qarşısındakı meydan | Osyodərə kənd mədəniyyət evinin foyesi |
| **9.** | **Züvüc kənd inzibati ərazi dairəsi** | | | | |
| 9.1 | | Züvüc, Zövnə, Çeşman Arta kəndləri | Züvüc kənd klubu | Züvüc kənd klubunun qarşısındakı meydan | Züvüc kənd klubunun foyesi |
| **10.** | **Kirəvud kənd inzibati ərazi dairəsi** | | | | |
| 10.1 | | Kirəvud, Ordahal, Ərdəbilə kəndləri | Kirəvud kənd klubu | Kirəvud kənd klubunun qarşısındakı meydan | Kirəvud kənd klubunun foyesi |
| 10.2 | | Boykəndil, Buruq, Aran, Lələdulan, Musavar kəndləri | Boykəndil kənd klubu | Boykəndil kənd klubunun qarşısındakı meydan | Boykəndil kənd klubunun foyesi |
| **11.** | **Nücü kənd inzibati ərazi dairəsi** | | | | |
| 11.1 | | Nücü, Lərmərud, Vamazğon, Davıdonu, Haftonu kəndləri | Nücü kənd mədəniyyət evi | Nücü kənd mədəniyyət evinin qarşısındakı meydan | Nücü kənd mədəniyyət evinin foyesi |
| **12.** | **Nüvədi kənd inzibati ərazi dairəsi** | | | | |
| 12.1 | | Vistən, Brkandul, 40-cı kilometr kəndləri | Vistən kənd mədəniyyət evi | Vistən kənd mədəniyyət evinin qarşısındakı meydan | Vistən kənd mədəniyyət evinin foyesi |
| 12.2 | | Nüvədi, Rəzəvul kəndləri | Nüvədi kənd klubu | Nüvədi kənd klubunun qarşısındakı meydan | Nüvədi kənd klubunun foyesi |
| **13.** | **Əliabad kənd inzibati ərazi dairəsi** | | | | |
| 13.1 | | Gürdəsər, Əliabad kəndləri | Gürdəsər kənd mədəniyyət evi | Gürdəsər kənd mədəniyyət evinin qarşısındakı meydan | Gürdəsər kənd mədəniyyət evinin foyesi |
| 13.2 | | Soru, Camaşəir kəndləri | Soru kənd klubu | Soru kənd klubunun qarşısındakı meydan | Soru kənd klubunun foyesi |
| **14.** | **Noda kənd inzibati ərazi dairəsi** | | | | |
| 14.1 | | Noda, Bilnə, Günəşli, Babagil kəndləri | Noda kənd mədəniyyət evi | Noda kənd mədəniyyət evinin qarşısındakı meydan | Noda kənd mədəniyyət evinin foyesi |
| **15.** | **Vizəzəmin kənd inzibati ərazi dairəsi** | | | | |
| 15.1 | | Vizəzəmin, Almu, Bibiyani, Cəngənəvud, Hamarmeşə, Haran, Kıncıvo, Kornədi, Peştətük, Sipyəreqon, Təbrizli, Sivəkəran kəndləri | Vizəzəmin kənd mədəniyyət evi | Vizəzəmin kənd mədəniyyət evinin qarşısındakı meydan | Vizəzəmin kənd mədəniyyət evinin foyesi |
| **16.** | **Siyov kənd inzibati ərazi dairəsi** | | | | |
| 16.1 | | Siyov, Akuşəpeştə, Xəlifəhoni kəndləri | Siyov kənd klubu | Siyov kənd klubunun qarşısındakı meydan | Siyov kənd klubunun foyesi |
| 16.2 | | Qılqılov kəndi | Qılqılov kənd klubu | Qılqılov kənd klubunun qarşısındakı meydan | Qılqılov kənd klubunun foyesi |
| 16.3 | | Hovil kəndi | Hovil kənd klubu | Hovil kənd klubunun qarşısındakı meydan | Hovil kənd klubunun foyesi |
| **17.** | **Bürsülüm kənd inzibati ərazi dairəsi** | | | | |
| 17.1 | | Bürsülüm, Lekər, Vov, Vənədi, Nosovyədi kəndləri | Bürsülüm kənd klubu | Bürsülüm kənd klubunun qarşısındakı meydan | Bürsülüm kənd klubunun foyesi |

# Lerik Rayon İcra Hakimiyyəti başçısının 25 avqust 2016-cı il tarixli 138 nömrəli sərəncamı ilə təsdiq edilmişdir

*Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi (referendum) ilə əlaqədar "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada Lerik rayonunun yaşayış məntəqələrində dinc yığıncaqlar, mitinqlər, nümayişlər və sair toplantıların keçirilməsi üçün ayrılmış yerlərin*

# S İ Y A H I S I

| | | | | | |
|---|---|---|---|---|---|
| 17.1 | | Bobla, Ancəqov, Zeynəko kəndləri | Bobla kənd klubu | Bobla kənd klubunun qarşısındakı meydan | Bobla kənd klubunun foyesi |
| **18.** | **Dəstər kənd inzibati ərazi dairəsi** | | | | |
| 18.1 | | Dəstər, Bradi kəndləri | Dəstər kənd mədəniyyət evi | Dəstər kənd mədəniyyət evinin qarşısındakı meydan | Dəstər kənd mədəniyyət evinin foyesi |
| 18.2 | | Hamarat, Dızdipok kəndləri | Hamarat kənd klubu | Hamarat kənd klubunun qarşısındakı meydan | Hamarat kənd klubunun foyesi |
| **19.** | **Tikəband kənd inzibati ərazi dairəsi** | | | | |
| 19.1 | | Tikəband, Zardoni, Dico, Nıso, Təndul, Hücü, Davradibi kəndləri | Tikəband kənd mədəniyyət evi | Tikəband kənd mədəniyyət evinin qarşısındakı meydan | Tikəband kənd mədəniyyət evinin foyesi |
| **20.** | **Çayrud kənd inzibati ərazi dairəsi** | | | | |
| 20.1 | | Çayrud, Piyəkücə, Andurma kəndləri | Çayrud kənd mədəniyyət evi | Çayrud kənd mədəniyyət evinin qarşısındakı meydan | Çayrud kənd mədəniyyət evinin foyesi |
| 20.2 | | Anzolu, Təngəbin kəndləri | Anzolu kənd mədəniyyət evi | Anzolu kənd mədəniyyət evinin qarşısındakı meydan | Anzolu kənd mədəniyyət evinin foyesi |
| 20.3 | | Rvarud kəndləri | Rvarud kənd mədəniyyət evi | Rvarud kənd mədəniyyət evinin qarşısındakı meydan | Rvarud kənd mədəniyyət evinin foyesi |
| **21.** | **Veri kənd inzibati ərazi dairəsi** | | | | |
| 21.1 | | Veri, Babakücə, Axunahiran kəndləri | Veri kənd mədəniyyət evi | Veri kənd mədəniyyət evinin qarşısındakı meydan | Veri kənd mədəniyyət evinin foyesi |
| 21.2 | | Küsəkəran, Veri-Əliabadı kəndləri | Küsəkəran kənd mədəniyyət evi | Küsəkəran kənd mədəniyyət evinin qarşısındakı meydan | Küsəkəran kənd mədəniyyət evinin foyesi |
| 21.3 | | Qələbin kəndi | Qələbin kənd klubu | Qələbin kənd klubunun qarşısındakı meydan | Qələbin kənd klubunun foyesi |
| **22.** | **Tülüconu kənd inzibati ərazi dairəsi** | | | | |
| | | Conu, Tülü, Qışlaq Vijaker, Hübi kəndləri | Conu kənd klubu | Conu kənd klubunun qarşısındakı meydan | Conu kənd klubunun foyesi |
| | | Qəvoy, Vılık, Loda kəndləri | Qəvoy kənd klubu | Qəvoy kənd klubunun qarşısındakı meydan | Qəvoy kənd klubunun foyesi |
| **23.** | **Qosmalıan kənd inzibati ərazi dairəsi** | | | | |
| 23.1 | | Qosmalıan, Ləléhiran, Çökərə, Digah, Divağac, Hiveri, Tatoni, Qələsər, Şonaçola Hoveri kəndləri | Qosmalıan kənd mədəniyyət evi | Qosmalıan kənd mədəniyyət evinin qarşısındakı meydan | Qosmalıan kənd mədəniyyət evinin foyesi |
| **24.** | **Kələxan kənd inzibati ərazi dairəsi** | | | | |
| 24.1 | | Kələxan, Kəlvəz, Göydərə, Məhləabad, Hüseynabad, Aşağı Amburdərə, Xocadoy, Hilədərə Qışlaq, Yuxarı Amburdərə kəndləri | Kələxan kənd mədəniyyət evi | Kələxan kənd mədəniyyət evinin qarşısındakı meydan | Kələxan kənd mədəniyyət evinin foyesi |
| **25.** | **Pirəsora kənd inzibati ərazi dairəsi** | | | | |
| 25.1 | | Pirəsora kəndi | Pirəsora kənd mədəniyyət evi | Pirəsora kənd mədəniyyət evinin qarşısındakı meydan | Pirəsora kənd mədəniyyət evinin foyesi |
| 25.2 | | Büzeyir kəndi | Büzeyir kənd klubu | Büzeyir kənd klubunun qarşısındakı meydan | Büzeyir kənd klubunun foyesi |
| **26.** | **Orand kənd inzibati ərazi dairəsi** | | | | |
| 26.1 | | Orand kəndi | Orand kənd klubu | Orand kənd klubunun qarşısındakı meydan | Orand kənd klubunun foyesi |
| **27.** | **Nuravud kənd inzibati ərazi dairəsi** | | | | |
| 27.1 | | Nuravud, Köhnə Orand, Zərdəbərə, Sorsçay kəndləri | Nuravud kənd klubu | Nuravud kənd klubunun qarşısındakı meydan | Nuravud kənd klubunun foyesi |
| **28.** | **Mistan kənd inzibati ərazi dairəsi** | | | | |
| 28.1 | | Mistan, Digov, Digovdərə, Halabın Xəlifəkənd, Pirzora kəndləri | Mistan kənd klubu | Mistan kənd klubunun qarşısındakı meydan | Mistan kənd klubunun foyesi |
| 28.2 | | Rəzgov kəndi | Rəzgov kənd klubu | Rəzgov kənd klubunun qarşısındakı meydan | Rəzgov kənd klubunun foyesi |
| **29.** | **Piran kənd inzibati ərazi dairəsi** | | | | |
| 29.1 | | Piran kəndi | Piran kənd mədəniyyət evi | Piran kənd mədəniyyət evinin qarşısındakı meydan | Piran kənd mədəniyyət evinin foyesi |
| 29.2 | | Zərigümaco, Qışlaq kəndləri | Zərigümaco kənd klubu | Zərigümaco kənd klubunun qarşısındakı meydan | Zərigümaco kənd klubunun foyesi |

**Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatında 2016-cı il üçün vətəndaşların qəbulu günlərinin**

**C Ə D V Ə L İ**

| S/s | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qəbul günləri və saatı | Telefon |
|---|---|---|---|---|
| 1 | Bağırov Rövşən Elmidar oğlu | Lerik Rayon İcra Hakimiyyəti başçısı | II gün 10:00-da | 025 274-63-02<br>025 274-61-82 |
| 2 | Baxşıyev Cəlil Yüzbaşı oğlu | Başçının birinci müavini | I gün 11:00-da | 025 274-60-21 |
| 3 | Məlikov Habil Ağaxan oğlu | Başçının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | III gün 10:00-da | 025 274-60-22 |
| 4 | Vəliməmmədova Arzu Həmzə qızı | Başçının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | IV gün 10:00-da | 025 274-60-23 |
| 5 | İbrahimov Əflatun Əjdər oğlu | Memarlıq və tikinti şöbəsinin müdiri | V gün 10:00-da | 025 274-46-68 |
| | Talıbov Gündüz Hümbətəli oğlu | İnformasiya təminatı və təhlil sektorunun müdiri | V gün 10:00-da | 025 274-60-61 |
| 6 | Bayramov Əlipənah Hüseynağa oğlu | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | VI gün 11:00-da | 025 274-54-70 |
| | Quliyev Araz Qurban oğlu | Hüquq şöbəsinin müdiri | VI gün 11:00-da | 025 274-47-64 |

**Qeyd:** Azərbaycanın Milli Qəhrəmanları və onların ailə üzvləri, şəhid ailələri və Qarabağ əlilləri rayon icra hakimiyyəti başçısı aparatına müraciət edərkən növbədənkənar qəbul edilir.
Bayram günlərinə düşən qəbul günləri növbəti iş günlərinə keçirilir.

# AZƏRBAYCAN SÜLHSEVƏR ÖLKƏDİR

**Sülh Uca Yaradanın bəşəriyyətə bəxş etdiyi ən dəyərli və müqəddəs nemətlərdəndir. Yer üzündə əmin-amanlıq, asudə həyat rəmzi olan sülh, eyni zamanda, müharibə qızışdırıcılarının qatı düşmənidir. Müharibə şəhərlərin, kəndlərin dağılması, aclıq, səfalət və fəlakət mənbəyidir. Sülh isə bunun tam əksi-Yer üzünün səadəti, xoşbəxtliyidir. Əgər dünyada bütün insanlar dostluq, qardaşlıq şəraitində yaşasaydılar, o zaman dünyamız gözəlləşər, qüssə, kədər insanlardan uzaq düşər, başımız üzərində aydın səma, mehriban Günəş parlayar, ayağımız altında ana torpaq gülümsəyərdi...**

**"Sülh zəngi"**

Sülh dinindən, dilindən, irqindən asılı olmayaraq bütün insanların bir-birini anlaması, bir-birinə xoş münasibətidir. Sülh həm də bəşəriyyətin ən çox arzu etdiyi bütün müsbət keyfiyyətləri özündə birləşdirən fundamental bir məfhumdur. Məhz buna görə də 1981-ci ildə dünya ölkələrinin yekdil qərarı ilə BMT-nin Baş Məclisi Beynəlxalq Sülh Gününü təsis edib.

Həmin vaxtdan etibarən, Sülh Günü hər il sentyabr ayının 3-cü həftəsinin çərşənbə axşamı qeyd edilməyə başlanıb. Lakin 2001-ci ildə - bu əlamətdar günün 20 illiyi ilə əlaqədar Birləşmiş Krallığın təklifi ilə BMT-nin Baş Məclisi Sülh Günü üçün 21 sentyabrı dəyişməz tarix kimi təsdiqləyib. Həmçinin BMT həmin gün dünyanın bütün qaynar nöqtələrində atəşkəsin gözlənilməsini tələb edib.

Hər il Beynəlxalq Sülh Günü BMT-nin Nyu-Yorkdakı Baş Qərargahının həyətində yerləşən "Sülh Zəngi"nin çalınması ilə başlayır. "Sülh zəngi" 1954-cü ildə BMT-nin Nyu-Yorkdakı qərargahına Yaponiya parlamenti tərəfindən hədiyyə edilib. Bu zəng dünyanın bütün uşaqları tərəfindən toplanaraq Xirosima və Naqasaki faciələrinin baş verdiyi Yaponiyaya göndərilən metal pulların, yüzlərlə döyüşçüyə məxsus orden və medalların ərintisindən hazırlanıb. "Sülh zəngi"nin üzərində "Yaşasın Mütləq Dünya Sülhü" sözləri yazılıb.

**BMT-nin müraciəti**

Hər il sentyabrın 27-də BMT-nin Baş katibi "Sülh Zəngi"ni çalaraq dünya xalqlarına müraciət edir, bütün döyüş əməliyyatlarını 24 saat ərzində dayandırmağa çağırır. BMT-nin Baş katibi Pan Gi Mun "Sülh bizim missiyamızdır; gündəlik axtarışlarımızın mövzusudur", - müraciətində dünya ictimaiyyətini sülhə nail olmaq üçün bütün səyləri birləşdirməyə səsləyir.

İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin qəbul edilməsinin 60-cı ildönümü münasibətilə BMT-nin Baş katibi Pan Gi Munun müraciətində qeyd edildiyi kimi, hələ də dünyada bir çox insanların hüquqları xüsusilə silahlı münaqişələr zamanı və atəşkəs dövründə pozulmaqda davam edir: "Məhz buna görə də biz çalışmalıyıq ki, bəyannamədə qeyd olunan hüquqlar günümüzün reallığına çevrilsin".

Baş katibin sözlərinə görə, BMT dünya xalqlarını səfərbər etmək məqsədilə mesaj kampaniyasına start verir: "Mənim mesajımda deyilir: 21 sentyabr Beynəlxalq Sülh Günüdür. Mən ümumdünya liderlərinə və bütün dünya əhalisinə səslənərək, münaqişə, yoxsulluq və aclığa qarşı, hamı üçün insan hüquqlarının təmin olunması istiqamətində qüvvələrin birləşdirilməsinə çağırıram".

**"Qızıl Göyərçin" mükafatı**

BMT-nin 60 illik yubileyinə həsr olunmuş "Qızıl Göyərçin" beynəlxalq sülh mükafatı 2008-ci ildən etibarən inteqrasiya, sülh, insan hüquqları bərabərliyi, sosial tərəqqi və azadlıq şəraitində yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması uğrunda mübarizə aparan şəxslərə təqdim edilir. Bu yüksək və ali mükafata dünyanın tanınmış simalarından olan Roma papası XVI Benedikt, Dalay Lama, Nobel mükafatları laureatları Desmond Tutu və Lex Valensa, Çexiya prezidenti Vatslav Havel, Almaniya Prezidenti Roman Hersoq, Almaniya Bundestaqının spikeri Lammert, Almaniyanın təhsil naziri xanım Annete Şavan, Almaniyanın ailə naziri xanım Kristina Şröder və digər görkəmli şəxsiyyətlər layiq görülüblər.

**Dünya sülh istəyir**

Sülhün qorunması, insanların əmin-amanlıqda yaşaması, amansız müharibələrin, hər çür zorakılığın dayandırılması arzusu bütün tarix boyu bəşəriyyəti düşündürüb. Amma təəssüf ki, tarix boyu, bəlkə də, elə ən çox pozulan bu arzu, bu istək olub....

Bu gün dünyada sülh naminə aparılan fəaliyyət həyati əhəmiyyət kəsb etsə də, təəssüflər olsun ki, heç də hər yerdə sülh qorunmur, müdafiə edilmir. Dünyanın bir çox yerlərində zorakılıqlar baş alıb gedir, milli münaqişələr daha da qloballaşır, fiziki coğrafiyası genişlənir. Həqiqətən də, dünyanın müxtəlif qütblərində saysız-hesabsız insan qrupları üçün sülh hələ də əlçatmazdır.

BMT-nin Baş katibinin hər il Beynəlxalq Sülh Günündə dünya xalqlarına müraciətində deyildiyi kimi, münaqişələrin səngiməsi, atəşkəs rejiminə tərəflərin qarşılıqlı şəkildə əməl etməsi təkcə insanların əmin-amanlıq şəraitində yaşaması deyil, eyni zamanda inkişaf, tərəqqi, bəşəri təhlükəsizliyə təminatdır. Sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində aparılan beynəlxalq miqyaslı tədbirlər nəticəsiz qaldıqca insanların qorxu, vahimə içərisində yaşaması da davam edir.

**Azərbaycan sülh tərəfdarıdır**

Bütün dünyada olduğu ki, Beynəlxalq Sülh Günü Azərbaycanda da geniş şəkildə qeyd edilir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) təşəbbüsü ilə hər il ölkəmizdə avqustun 21-dən sentyabrın 21-dək "Beynəlxalq Sülh Günü" aylığı keçirilir. "Sülh aylığı" çərçivəsində keçirilən silsilə tədbirlərdə Beynəlxalq Sülh Günü haqqında ictimaiyyətə geniş məlumat verilir, dünyada sülhün, əmin-amanlığın, ədalətin bərqərar olunmasının, təhlükəsizliyin təmin edilməsinin hər bir sülhsevər xalqın, bütün insanların arzusu olduğu bildirilir.

Bəşəriyyətin əbədi mövzusu olan sülh mövzusu torpaqlarının 20 faizi işğal altında olan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün də xüsusi əhəmiyyət kəsb edir. Təəssüf ki, dünyanın ən sülhsevər xalqlardan olan, dünyanın ən tolerant ölkəsinin vətəndaşları Ermənistanın ölkəmizə təcavüzü nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşüblər.

Bu illər ərzində Azərbaycan həmişə münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində mühüm addımlar atıb. Görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev Azərbaycana ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra böyük müdriklik göstərərək qan tökülməsinin qarşısını aldı, 1994-cü ilin may ayında atəşkəs haqqında müqavilə imzaladı, müharibəni dayandırdı, ölkədə sabitliyə nail oldu. Bu, həm də dövlətimizin sülh arzusunun ifadəsi idi....

Bu gün Azərbaycanla Ermənistan arasında atəşkəsin imzalanmasından 21 ildən çox vaxt keçir. Ermənistan isə hələ də BMT Təhlükəsizlik Şurasının münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 1993-cü ildə qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrin heç birinə əməl etmir və atəşkəsin pozulması halları tez-tez qeydə alınır... Bu gün güclü orduya malik Azərbaycan və onun Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqın sülh arzusunu ifadə edərək, münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görür...

Son illər bəşəriyyətin xoş hisslər və böyük ümidlə qeyd etdiyi təqvim günləri arasında bir bayram da var: 21 sentyabr Beynəlxalq Sülh Günü! Bu əlamətdar günü düynanın bütün sülhsevər insanları kimi, Azərbaycan xalqı da böyük sevgi ilə qeyd edir. Silahların susmasına və qeyri-zorakılığa həsr olunan Beynəlxalq Sülh Günü nəinki xalqlar arasında, həmçinin ailələrdə, məktəblərdə, ictimaiyyətdə münasibətlərin sağlamlaşmasına, köklü zorakılığa qarşı mübarizənin gücləndirilməsinə nail olmaq üçün bir fürsətdir.

*Elgiz Mehdiyev,*
*Lerik rayon prokurorluğunun müstəntiqi,*
*II dərəcəli hüquqşünas*

# VERGİ İNZİBATÇILIĞININ HƏYATA KEÇİRİLMƏSİNDƏ YENİ MƏRHƏLƏ

**Cari ilin avqustun 4-də Azərbaycan Respublikası Prezidenti "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Sərəncam imzalayıb. Bu Sərəncam vergi sisteminin inkişafında, xüsusilə də vergi inzibatçılığının həyata keçirilməsində yeni bir mərhələ açır.**

Sərəncamda vergi inzibatçılığı sahəsində əhəmiyyətli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu tədbirlərə və vergitutma bazasının genişləndirilməsi, vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığının təkmilləşdirilməsi, nümunəvi vergi ödəyicilərinin müəyyən edilməsi, vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, risk qiymətləndirilməsi sisteminin yaradılması, vergi bəyannamələrinin formalarının təkmilləşdirilməsi istiqamətində vergi islahatlarının davam etdirilməsi və s. aiddir.

İslahatların mühüm bir hissəsi biznes mühitinin daha da yaxşılaşdırılması, vergi qanunvericiliyinin sahibkarlığın aparılması üçün daha əlverişli şərtlərin yaradılması və sahibkarların hüquqlarının genişləndirilməsi ilə bağlı müddəalarını əhatə edir.

Qarşıdakı dövrdə ölkə başçısının qeyd olunan tapşırığına uyğun olaraq istehsal fəaliyyəti ilə məşğul olan kiçik və orta sahibkarlar üçün mənfəət (gəlir) və əlavə dəyər vergisinin dərəcələrinin aşağı salınması ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi, bu sahədə vergi inzibatçılığının sadələşdirilməsi nəzərdə tutulur.

Ölkədə aparılan sosial siyasətə uyğun olaraq, bir sıra istehlak mallarının qiymətlərinin ƏDV-nin differensiallaşdırılması yolu ilə tənzimlənməsi nəzərdə tutulur. Beynəlxalq təcrübədə belə mallara uşaq qidaları, məktəbli ləvazimatları, dərman vasitələri, əlillər üçün tibbi məhsullar və avadanlıqlar, kitablar və bir sıra xidmət növləri daxildir. Bununla bağlı Vergi Məcəlləsinə müvafiq dəyişikliklər layihəsi hazırlanacaq.

Uzun müddət müzakirə mövzusu olan kənd təsərrüfatı məhsullarının ticarət şəbəkələri tərəfindən pərakəndə qaydada satılarkən bu məhsulların tam dəyərinin ümumi qaydada ƏDV-yə cəlb edilməsi ilə bağlı məsələ də artıq öz həllini tapacaq. Belə ki, ƏDV-nin ticarət əlavəsindən hesablanması ilə bağlı müddəalar müvafiq qanunverici dəyişikliklərdə nəzərə alınacaq. Bu addım kiçik və orta sahibkarlığı stimullaşdırmaqla yanaşı, pərakəndə ticarətdə rəqabət mühitini təmin edəcək. Sərəncamın icrası ilə nümunəvi və intizamsız vergi ödəyiciləri müəyyən ediləcək, onların adları ictimaiyyətə açıqlanac\aq. Nümunəvi vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığı sadələşdiriləcək və onlara ünvanlı xidmətlər göstəriləcək.

Vergi ödəyicilərinə xidmətlərin spektri genişləndiriləcək və bir sıra yeni elektron xidmətlərin tətbiqi həyata keçiriləcək.

Sərəncamda müəyyən edilmiş islahatların digər bir hissəsi vergitutma bazasının genişləndirilməsi və vergi nəzarətinin səmərəliliyinin artırılması ilə bağlıdır.

Vergi orqanları tərəfindən aparılan araşdırmalar göstərir ki, iqtisadiyyatın ayrı-ayrı sahələrində vergidən yayınma hallarının miqyası kifayət qədər böyükdür. Bu özünü vergi ödəyicilərinin vergi orqanlarında qeydiyyatdan keçməməsində, uçot-məlumat bazasının düzgün aparılmaması və yaranmış vergi öhdəliklərinin düzgün göstərilməməsində, qiymətəmələgəlməsi prosesində vergi minimallaşdırılması metodlarının tətbiqində, vergi yükü aşağı olan ofşor zonalarda qeydiyyatdan keçməklə vergilərin yayındırılmasında, büdcəyə vergilərin tam və vaxtında ödənilməməsində və s. formalarda göstərir.

Vergi nəzarətinin artırılacağı sahələrdən biri xərclərin süni şəkildə artırılması (transfert qiymətləndirmə) hallarının aradan qaldırılması məqsədilə qanunvericilik bazasının yaradılması ilə bağlı olacaq.

Azərbaycanın mövcud vergi qanunvericiliyinin müvafiq müddəaları ölkə hüdudlarından kənarda təsis edilmiş şirkətlərin gəlir və xərclərinin düzgün müəyyən edilməsinə imkan vermir. Belə halların qarşısının alınması məqsədilə ölkə hüdudlarından kənarda, o cümlədən vergi sığınacağı (ofşor) hesab edilən dövlətlərdə və ya ərazilərdə, təsis edilmiş şəxslər tərəfindən həyata keçirilən əməliyyatlar üzrə əldə edilən gəlirlərin transfer qiymətləri tətbiq edilməklə vergiyə cəlb edilməsi üçün qanunvericiliyə dəyişiklik edilməsi nəzərdə tutulur.

Bununla yanaşı, Azərbaycan Respublikası rezidentlərinin güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə (ofşor zonalarda) yaradılmış müəssisələrlə əməliyyatlarına səmərəli nəzarət mexanizmlərinin qurulması nəzərdə tutulur. Yeri gəlmişkən, ölkənin hüdudlarından kənarda əldə olunmuş gəlirlərin vergiyə cəlb olunmasında şəffaflığı təmin etmək və səmərəli vergi nəzarəti həyata keçirmək üçün maliyyə məlumatlarının avtomatik mübadiləsi məqsədilə hökumətlərarası müqavilələrin bağlanması sahəsində işlər intensivləşdiriləcək.

Bəzi vergi ödəyiciləri vergi qanunvericiliyi ilə verilmiş hüquqlardan sui-istifadə etməklə müxtəlif sxemlər vasitəsilə vergidən yayınırlar. Beynəlxalq təcrübə nəzərə alınmaqla belə ödəyicilərinin vergitutma obyektlərini şəffaf şəkildə vergiə cəlb etmək və vergitutma bazasının gizlədilməsinin qarşısını almaq məqsədilə vergi qanunvericiliyində hüquqlardan sui-istifadə əleyhinə müddəaların daxil edilməsi nəzərdə tutulur. Ölkəmizdə mal, iş və xidmətlər üzrə dövriyyələrin rəsmiləşdirilməsi sahəsində mövcud vəziyyətin təhlili göstərir ki, bu sahədə qaimə-fakturaların kağız formasında tətbiqi qaimə-fakturaların uçotunda pərakəndəliyə səbəb olmaqla, uçotun lazımi səviyyədə təşkil olunmamasına və nəticə etibarı ilə vergidən yayınma hallarına şərait yaradır. Bu baxımdan qarşıdakı dövrdə elektron qaimə-faktura sisteminin tətbiqi dairəsi genişləndiriləcək.

Nəzərdə tutulan məsələlərdən biri, sabit vergi sisteminin tətbiqidir. Sabit vergi fiziki şəxslərin əldə etdiyi gəlirlərinin həcmindən asılı olmayaraq aylıq sabit məbləğdə müəyyən edilən vergidir. Vergi öhdəliklərinitn bu qaydada yerinə yetirilməsi fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdə vergi inzibatçılığının yüngülləşdirilməsi, vergi ödəmələrinin bəyannamə təqdim edilmədən sadələşdirilmiş qaydada yerinə yetirilməsi məqsədini daşıyır. Bu məqsədlə Vergi Məcəlləsində təklif edilən dəyişiklikdə bu kateqoriyaya aid olan fiziki şəxslərin siyahısının və aylıq sabit vergi məbləğlərinin müəyyən edilməsi nəzərdə tutulur.

Bununla yanaşı, rəqəmsal iqtisadiyyatın vergiyə cəlb edilməsi ilə bağlı mexanizmlər hazırlanacaq. İnformasiya-kommunikasiya texnologiyaları vasitəsilə həyata keçirilən ticarət sövdələşmələrinin (e-ticarət) sayı durmadan artmaqdadır və gələcəkdə də bu tendensiyanın artımı şübhəsizdir. Elektron ticarətdə "elektron pulların" tətbiqi bu sahəyə vergi nəzarətinin həyata keçirilməsini çətinləşdirir. Vergitutma bazasının genişləndirilməsi, habelə rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb edilməsinin işlək mexanizminin yaradılması üçün Vergilər Nazirliyinin mütəxəssisləri ciddi işlər həyata keçirirlər.

Bunlarla yanaşı, "Könüllü vergi açıqlaması" ("Voluntary tax disdosure") sisteminin tətbiqi nəzərdə tutulur. Könüllü vergi açıqlaması vergi orqanı tərəfindən keçirilən vergi yoxlaması zamanı aşkar olunmamış səhvlərin, o cümlədən vergi məbləğlərinin düzgün hesablanmaması, azaldılması və s. kameral vergi yoxlaması üçün qanunla müəyyən edilmiş müddət bitdikdən sonra vergi ödəyicisi tərəfindən könüllü olaraq bəyan edilməsini nəzərdə tutur. Bu isə vergi ödəyicisinə dəqiqləşmiş bəyannamə verilməsi hüququnu verir ki, həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə vergi ödəyicisinə faiz hesablanması və maliyyə sanksiyasının tətbiqi istisna ediləcək.

Daha bir yenilik vergidən yayınma hallarının qarşısını almaq məqsədilə ictimai məlumatlandırma ("Whistleblow") mexanizminin hazırlanmasıdır. Vergi Məcəlləsinin 73-cü maddəsinə əsasən görülmüş işlərin və ya göstərilmiş xidmətlərin haqqını ödəyən, yaxud hər hansı digər ödəmələr aparan şəxs, qanunla müəyyən edilmiş hallarda və qaydada ödənilmiş məbləğlər haqqında vergi orqanına məlumat verməlidir. Vergi Məcəlləsi qüvvəyə mindiyi tarixdən həmin maddə əhəmiyyətli dərəcədə tətbiq edilməyib. Sərəncamın icrası məqsədilə bu maddədə müəyyən edilmiş müddəalar daha da genişləndirilib, beynəlxalq təcrübə nəzərə alınmaqla vergidən yayınan vergi ödəyiciləri üzərində ictimai nəzarət mexanizminin yaradılması və vergidən yayınma faktları barədə vergi orqanına məlumat verən şəxslərin mükafatlandırılması nəzərdə tutulur.

Qeyd edək ki, avqustun 5-də Vergilər Nazirliyində ölkə Prezidentinin Sərəncamı ilə əlaqədar kollegiya iclası da keçirilib və Sərəncamla müəyyən edilmiş tapşırıqların icrası ilə bağlı Tədbirlər Planı qəbul edilib. Tədbirlər Planında Sərəncamda müəyyən edilmiş bütün məsələlər üzrə görüləcək işlər, bu işlərə məsul struktur vahidləri və icra müddətləri müəyyən edilib. İlin sonuna Planın kimi icrası təmin ediləcək.

***6 saylı Ərazi Vergilər İdarəsi***

## ELAN

Rvarud kənd orta məktəbi tərəfindən Hacıyev Faiq Xanmirzə oğluna verilmiş 28 iyun 2000-ci il tarixində verilmiş B №720890 saylı attestat itdiyi üçün etibarsız sayılır.

***

**DÜZƏLİŞ**

Qəzetimizin ötən nömrəsində Nuridə Muradzadənin imzası ilə dərc olunmuş şeirdəki şəkil müəllifə aid deyil



Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası

Redaktor: İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küç. - 36.

Tel.: (070) 520-73-91 (0157) 4-54-50

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.

Sifariş: 280 Tiraj: 650

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi: AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935

Qəzet "Mətbuat" firmasının mətbəəsində çap edilmişdir.